**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
_______ dos. Zaur Məmmədov
"15" 05 2025-ci il

**Fənn sillabusu**

**Fakültə: Təbiyyat**
**Kafedra: Riyaziyyat və informatika**
**İxtisas:** 050504-Ekologiya
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** S.f. Məntiq
**Kodu:** SF-B04.1
**Tədris ili**: III, (2025-2026). **Semestr:** V
**Tədris yükü:** cəmi-30 saat. Auditoriya saatı-10 saat (6 saat mühazirə, 4 saat seminar)
**Tədris forması**: qiyabi
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 3 kredit
**Saat:**
**II. Müəllim haqqında məlumat**
**Soyadı, adı, atasının adı, dərəcəsi**:Qasımov Rəşid Ataxan oğlu, r.ü.f.d., dos.
**Kafedranın ünvanı**: Lənkəran şəhər, H.Z.Tağıyev küçəsi-118, LDU-nun 3 saylı tədris korpusu, otaq № 301
**Məsləhət saatı**: II gün $12^{00}$-$13^{00}$
**E-mail ünvanı**: resid5757@mail.ru
**III. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

01. İ. Həsənov. İQ. Riyaziyyatla bağlı məntiq testləri. Bakı-2007, Bakı-2008.
02. İ.Ağakişiyev,M.Aranlı,M.Əliyev və b.Məntiq testləri. Bakı-2015.
03. V.Xaspoladova,S.Sadıqova,P.Musayev,E.Məmmədov. Məntiq. Bakı-2010
04. E.Lətifli. Məntiq testləri. Bakı-2019.
05. C.Cahangirov və b. Magistr test bankı. Bakı-2011.
06. O.B.Boqomolova. Məntiq məsələləri. Bakı-2007.
07. M-B Babayev, C.Qurbanov. Humanitar məntiq (Məntiqdən məsələlər). Bakı-2006.
08. Malik Aranlı. Məntiqi təfəkkür-İQ testləri.Bakı-2007.
09. Magistr jurnalları.Test tapşırığı nümunələri.Məntiq.İnformatika.Riyaziyyat.Xarici dillər.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən orta məktəb riyaziyyatının tədrisi vacibdir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Məntiq həqiqətə aparan düzgün təfəkkürün formaları, qanunları və bu formalar üzərində aparılan məntiqi əməliyyatlar və qaydalar haqqında elmdir. Məntiq mücərrəd təfəkkür mərhələsində nəzəri idrakın formaları, üsulları, metodları və bu metodların əsasını təşkil edən qanunlar haqqında, həmçinin idrak vasitəsi kimi dil haqqında ümumelmi xarakter daşıyan elmdir. Düşünmə, əqli nəticə və ya əqli nəticələr zənciridir. Əqli nəticə isə hökmlər arasında əlaqə yaradaraq, zehnin bilinənlərdən bilinməyənləri əldə etməsidir. Qədim məntiqçilər məntiqə mövzusuna görə tərif verəndə deyərdilər ki, məntiq "bilinəndən bilinməyənin əldə edilməsinə vasitə olan elmdir", həm də deyərdilər ki,"Məntiq həqiqətə sövq edən təfəkkür əməliyyatlarının elmidir". Məntiqə bir də məqsədinə görə tərif verirlər. "Məntiq ağlı xətadan qoruyan bir

fənn, bir elmdir". Bu təriflərdən nəticə olaraq məntiqin həm nəzəri həm də praktiki yönümlü fənn olduğu alınır. Məntiq bir elm kimi hansı məntiqi üsullardan və hansı fikir əməliyyatlarından istifadə olunması baxımından mühakimənin təhlili ilə maraqlanır.

Klassik məntiqi nəzəriyyə xüsusi dildə izah edilir, maddi nümunələrlə mülahizə irəli sürülür. Klassik məntiqdə səhvlər üzərində nəzarət hələ qurulmayıb, miqyaslı düşüncə tam formalaşmayıb, təsvirlərin məhdudiyyət xətti işlənməmişdir. Lakin buna baxmayaraq düzgün mülahizə yürütmək mədəniyyəti məntiq elmindən əvvəl yaranmışdır. Hər bir insan tərəfindən fikir dünyasında özündən asılı olmadan və müvafiq səhvlərlə mühakimələr yürüdülür. Buna görə də bəziləri belə hesab edir ki, şəxsi təfəkkür təbii prosesdir və analizə ehtiyac yoxdur. Hesab edilir ki, danışıq-təfəkkürün özü deməkdir. Təfəkkür isə sadəcə olaraq məntiqi ardıcıllıq deyildir. İstənilən məsələnin həllində hər şey -ardıcıllıq, təsadüf, intiusiya, emosiya, şəxsi təcrübə, dünyanı dərketmə miqyası vacib ola bilir. Məntiqin əsas vəzifəsi bütün dövrlərdə eyni olmuşdur: nəticə çıxartmaq, mümkün olan hər şeyi tətbiq və analiz etmək. Bununla belə, hesab edilir ki, nəticə obyektin məzmunundan deyil, onu tətdiq metodlarından birbaşa asılıdır. Ona görə də tətqiqat metodlarını rəngarəngliyi və subyektiv baxışların çoxluğu arzuolunandır. Məntiqin konkret sahələri bütün tarix boyu tədricən dəyişilmişdir. Tarixən məntiq fəlsəfənin bir hissəsi kimi öyrənilib. Hal-hazırda o müstəqil bir elm kimi qəbul olunur. Həmçinin riyaziyyat və informatikanın bir hissəsi kimi də öyrənilir. Hadisələr arasındakı ümumi, mühüm, zəruri xassə və münasibətlər anlayış, hökm və əqli nəticənin müxtəlif forma və sistemlərində ifadə olunur ki, bunu ancaq təfəkkürün köməkliyi ilə anlamaq mümkündür. Predmetlərin mahiyyətinin aşkar olunmasında, idraki problemlərin həllində tərif, bölgü, əqli nəticə, sübut və bu kimi intellektual əməliyyatların mühüm rolu vardır və bunların əsasında duran təfəkkür vahidlərini məntiq elmi öyrənir. Bu fənn məntiqi təfəkkürün inkişafına təkan verir, təhlilləri düzgün qurmağı, fərziyyələr irəli sürməyi və onları araşdırmağı, müstəqil qərar qəbul etməyi öyrədir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

**Qiymət meyarları aşağıdakılardır:**

-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.

-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.

-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;

-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir

-6 bal- tələbənin cavabı əsasən düzgündür.

-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.

-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;

- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;

- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
-0 bal- suala cavab yoxdur.
Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.
Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Davranış qaydalarını, tədris və daxili intizam qaydalarını pozduqlarına görə tələbələrə aşağıdakı cəzalardan biri verilə bilər: a) xəbərdarlıq (şıfahi və yazılı qaydada); b) töhmət; c) şiddətli tömət; d) LDU tələbələr siyahısından xaric etmək.

Cəza tədbiri kimi LDU-dan xaric etmək aşağıdakı hallarda tətbiq edilir:
-ali təhsil müəssisəsinin daxili intizam qaydalarını kobud şəkildə pozduqda;
-növbəti tədris ilinə qeydiyyatdan keçməyib semestrin sonuna qədər ali təhsil müəssisəsi ilə əlaqə saxlamadıqda.

**X. Təqvim planı: Mühazirə 6 saat. Seminar 4 saat**

| № | Mövzular | Müh. | tarix |
|---|---|---|---|
| **1.** | **Şifrələr və ədədlər. Əməllər. Ədədi ardıcıllıqlar** | **2** | |
| **Plan:** | | | |
| **1.** | Şifrələr. Sıralar | | |
| **2.** | Ədədlər | | |
| **3.** | Əməllər | | |
| **4.** | Ədədi ardıcıllıqlar | | |
| **Mənbə:** | **[1, 3, 5, 6, 7, 8-10]** | | |
| **2.** | **Ədəd şəkil əlaqələri. Şəkil əlaqələri. Cədvəllər. Qrafiklər.** | **2** | |
| **Plan:** | | | |
| **1.** | Ədəd şəkil əlaqələri | | |
| **2.** | Şəkil əlaqələri | | |
| **3.** | Tərəzilər | | |
| **4.** | Cədvəllər | | |
| **5.** | Qrafiklər | | |
| **Mənbə:** | **[1, 2, 4, 5, 6, 7, 8-12]** | | |
| **6.** | **Sahələr. Məntiq məsələlərinin həlli. Sözlə bağlı (verbal) məsələlər** | **2** | |
| **Plan:** | | | |
| **1.** | Sahələr. Perimetrlər | | |
| **2.** | Yaş məsələləri | | |
| **3.** | Təqvim və saat məsələləri | | |
| **4.** | Hərəkət məsələləri | | |
| **5.** | Faiz məsələləri | | |
| **6.** | İş və hovuz məsələləri | | |

| | | | |
|---|---|---|---|
| 7. | Qarışığa aid məsələlər | | |
| 8. | Birləşmələr və ehtimal nəzəriyyəsinin bəzi elementləri | | |
| 9. | Sözlə bağlı (verbal) məsələlər | | |
| Mənbə: | [1, 2, 4, 5, 6, 7, 9-12] | | |

**Seminar**

| № | Mövzular | Müh. | tarix |
|---|---|---|---|
| 1. | Şifrələr və ədədlər. Əməllər. Ədədi ardıcıllıqlar. Ədəd şəkil əlaqələri. Şəkil əlaqələri. | 2 | |
| 2. | Cədvəllər. Qrafıklər. Sahələr. Perimetrlər. Məntiq məsələlərinin həlli. Sözlə bağlı (verbal) məsələlər | 2 | |

**XI. Fənn üzrə tələblər:**

- obyektiv gerçəklikdəki hadisə və proseslərin qarşılıqlı zəruri qanunauyğunluqlarını öyrənmək;

- Əşyalar arasındakı əlaqələrin və fikirlərin inkişafındakı qanunauyğunluqları bilmək;

-təfəkkürün məntiqinə aid müəyyən biliklər sisteminə yiyələnmək;

-insan fəaliyyətinin ardıcıllığını bildirən bəşəri qaydaların məcmusunu ifadə etmək.

**XII. Fənn üzrə təlimin nəticələri:**

-fənnin təlimi nəticəsində müəyyən edilir ki, məntiq ancaq təsviri deyil, normativ xarakter daşıyan elmlərdəndir.

-məntiq nəticədə idrak prosesində tələb və normaları yaradır və təkmilləşdirir;

- fənnin təlimi nəticəsində təfəkkürün mahiyyəti aşkara çıxır, onun forma və qanunlarının idrak prosesində rolu izlənilir, obyektiv gerçəklik beyinlərə inikaı olunur.

-təlim nəticəsində inikas prosesi haqqında adi təsəvvürə yiyələnməklə təfəkkürün xüsusiyyətləri, onun forma və qanunlarının mahiyyəti dərk olunur.

-fənnin təlimi nəticəsində idrak prosesinin xarakteristikası öyrənilir.

**XIII. Tələbələrin fənn haqqında fikirlərinin öyrənilməsi:**

**XIV. Kollokvium sualları**

1. Ədədlər. Əməllər. Ədədi ardıcıllıqlar
2. Ədəd şəkil əlaqələri. Tərəzilər
3. Cədvəllər. Qrafiklər
4. Sahələr. Perimetrlər
5. Yaş məsələləri. İş və hovuz məsələləri

**XV. İmtahan sualları.**

1. Şifrələr . Sıralar
2. Ədədlər
3. Əməllər
4. Ədədi ardıcıllıqlar
5. Ədəd şəkil əlaqələri
6. Şəkil əlaqələri
7. Tərəzilər
8. Cədvəllər
9. Qrafiklər
10. Sahələr
11. Perimetrlər
12. Yaş məsələləri
13. Təqvim və saat məsələləri
14. Hərəkət məsələləri
15. Faiz məsələləri

16. İş və hovuz məsələləri
17. Qarışığa aid məsələlər
18. Birləşmələr və ehtimal nəzəriyyəsinin bəzi elementləri
19. Sözlə bağlı (verbal) məsələlər

**"Məntiq seçmə"** fənninin sillabusu **"050504-Ekologiya"** ixtisasının tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus «Riyaziyyat və informatika» kafedrasında müzakirə edilərək, təsdiq edilmişdir **(12.05.2025-ci il, protokol № 11).**

**Fənn müəllimi:** **dos.R.A.Qasımov**

**Kafedra müdiri:** **dos.R.A.Həmidov**